# Qurban bayramınız mübarək!


İQTİSADİYYAT

www.iqtisadiyyat.com

N31 (1078) 08-14 avqust 2019-cu il

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır


# "Ölkəmiz inamla inkişaf edir, böyük infrastruktur layihələri icra olunur"

Bu sözləri iyulun 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə deyib. O, qeyd edib ki, ümumi iqtisadi vəziyyət çox müsbətdir və bu, özünü rəqəmlərdə də əks etdirir.

İqtisadiyyatımız bu ilin altı ayında 2,4 faiz, qeyri-neft sektorumuz 3,2 faiz artmışdır. Ən sevindirici göstərici qeyri-neft sənayesindədir. Burada artım 15,7 faizdir. Bu, onu göstərir ki, son illərdə sənayeləşmə siyasətimiz gözəl nəticələr verir. Sənayemizin qeyri-neft sektoru rekord addımlarla irəliləyir. Bu sahədə, əlbəttə ki, bu il istifadəyə verilmiş iri müəssisələrin rolu kifayət qədər böyükdür. Bildiyiniz kimi, karbamid zavodu, "SOCAR-Polymer" zavodu istifadəyə verilmişdir və bu zavodların istehsal həcmi kifayət qədər böyükdür. Eyni zamanda, kiçik və orta sahibkarlığın inkişafı üçün lazımi addımlar atılır. Beləliklə, altı ayda qeyri-neft sənayemizin 15,7 faiz artımı, əlbəttə ki, çox sevindirici haldır.

Kənd təsərrüfatında da rekord göstərici əldə edilib. Kənd təsərrüfatı bu ilin altı ayında 13 faiz artmışdır, xüsusilə bitkiçilik hesabına. Bitkiçilik 25 faiz artmışdır. Yəni, bu, onu göstərir ki, qoyulan investisiyalar, aparılan islahatlar, verilən subsidiyalar, kənd təsərrüfatına elmi yanaşma öz nəticəsini verməkdədir. Əminəm ki, gələcək illərdə kənd təsərrüfatı dayanıqlı şəkildə inkişaf edəcək və beləliklə, həm məşğulluğun, eyni zamanda, kənd təsərrüfatı ixracının artırılmasına xidmət göstərəcək.

Ticarət dövriyyəmiz də kifayət qədər artıb – 20 faizdən çox. Qeyri-neft ixracımız 15 faiz artmışdır. Altı ayda ölkə iqtisadiyyatına 6 milyard dollardan çox sərmayə qoyulub. Bu sərmayənin böyük hissəsi qeyri-neft sektoruna qoyulan sərmayədir. İnflyasiya cəmi 2,5 faizdir. Bu da yaxşı göstəricidir, əhalinin gəlirləri 6,6 faiz artmışdır. Büdcə daxilolmaları Vergilər Nazirliyinin, Dövlət Gömrük Komitəsinin xətti ilə 440 milyon manatdan çox artmışdır, yəni, plandan əlavə yığılmışdır və bu da aparılan islahatların təzahürüdür. Bir sözlə, bütün iqtisadi göstəricilər onu deməyə əsas verir ki, biz düzgün istiqamətdə inkişaf edirik və qarşıda duran bütün vəzifələri icra edirik.

Bildiyiniz kimi, bu ilin əvvəlində çox böyük sosial paket təsdiqləndi və bu sosial təşəbbüslər 4 milyondan çox insanı əhatə edir. Çox önəmli addımlar atılmışdır – minimum əməkhaqqı, minimum pensiya əhəmiyyətli dərəcədə qaldırılmışdır. Birinci dəfə 40 faiz, ikinci dəfə də 40 faiz artmışdır, bu, artıq sentyabr ayından ödəniləcək. Minimum əməkhaqqı təxminən 2 dəfə qaldırılıb, 130 manatdan 250 manata çatdırılıb. Pensiya isə 116 manatdan 200 manata çatdırılıb. Bu da çox əhəmiyyətli artımdır və əlbəttə ki, buna böyük maliyyə vəsaiti lazımdır. Biz əlavə gəlirlərimizin demək olar ki, tam həcmini sosial sahəyə yönəldirik. Bu sosial paketin həyata keçirilməsi üçün çox böyük maliyyə vəsaiti tələb olunur. Biz buraya təxminən 2 dəfə artımın olduğu sosial müavinətləri də əlavə edə bilərik. Məcburi köçkünlərə verilən müavinət 50 faiz artmışdır, problemli kreditlərlə bağlı olan məsələ öz həllini tapmışdır, digər sosial təşəbbüslər irəli sürülmüşdür və bu, bir daha onu göstərir ki, bizim siyasətimiz sosialyönümlü siyasətdir.



Proqramın həyata keçirilməsi ilə əlaqədar görülmüş işlərlə bağlı **Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil BABAYEV** dedi:

- Siz ilin əvvəlində bəyan etmişdiniz ki, bu il sosial inkişafla bağlı çox fərqli bir il olacaqdır. Həqiqətən də Sizin təşəbbüslərinizlə iki böyük sosial islahat paketi qəbul edildi. Bu sosial islahat paketləri – birinci paket 3 milyon insanımızı əhatə etdi və ümumi illik maliyyə tələbi 1,6 milyard manata bərabər idi. Bu sosial islahat paketi artıq tam şəkildə icra olundu və həm pensiyaçılarımızın, həm də işləyən vətəndaşlarımızın əməkhaqları artırıldı. İkinci sosial paketlə bağlı hazırlıq işləri artıq yekunlaşıb və sentyabr ayının 1-dən etibarən minimum əməkhaqqının 250 manata çatdırılması, dövlət sektorunda çalışanlar əlavə 400 min insanın kateqoriyalarından asılı olaraq 20-50 faiz aralığında əməkhaqlarının artırılması, eyni zamanda, oktyabrın 1-dən etibarən 750 min pensiyaçının pensiyasının artırılması ilə bağlı bütün hazırlıq işləri artıq yekunlaşdırılıb. Ümumilikdə hər iki paketin ümumi dəyəri cari il üçün 2,3 milyard manatdır, növbəti il üçün 3 milyard manatdır və 4,2 milyon insanımızı əhatə edəcəkdir. Minimum əməkhaqqında demək olar ki, iki dəfə artım, minimum pensiyada 72 faizlik artım nəticəsində Azərbaycanda minimum pensiya MDB məkanında alıcılıq qabiliyyəti üzrə birinci göstərici olacaqdır. Minimum əməkhaqqı isə yenə də alıcılıq qabiliyyəti üzrə MDB məkanında ikinci göstərici olacaqdır.

Əlavə olaraq, tapşırığınıza əsasən müavinət və təqaüdlərin artırılması sahəsində görülən işlər ümumilikdə 1,3 milyon insanımızı əhatə etdi və bunlardan 300 mindən artığı məhz əlilliyi olan şəxslər idi, 500 minə qədəri məcburi köçkün, 100 mindən artığı tələbə və gənclər idi. Ümumilikdə baxdıqda bu müavinət və təqaüdlər əhalinin sosial cəhətdən ən həssas təbəqəsini əhatə etdi və onların gəlirləri çox əhəmiyyətli şəkildə artırıldı.

Sizin digər bir sosial təşəbbüsünüz olaraq, ötən ilin sonlarında qanunvericiliyə edilmiş dəyişiklik nəticəsində ölkəmizdə ciddi şəkildə sosial sığorta amnistiyası elan edildi və 2006-cı ildən 2018-ci ilədək sosial sığorta sahəsində cüzi ödəniş etmiş şəxslərə belə 25 il sığorta stajı tətbiq edildi. Bunun nəticəsində yanvar ayının 1-dən etibarən avtomatik pensiya təyinatına başlanıldı. Avtomatik pensiya təyinatı bu gün artıq 13 min insanı əhatə edir.

**Prezident İlham ƏLİYEV:** Özünüməşğulluq Proqramı ilə bağlı hansı işlər görülür? Çünki ilin əvvəlində biz planlaşdırırdıq ki, təqribən 7 min insanı əhatə edəcək, amma həyat göstərir ki, rəqəm artır və tələbat da artır. Yəni, bu sahədə hansı işlər görülüb və proqramın əhatə dairəsi nə qədər genişlənəcəkdir?

**Nazir Sahil BABAYEV:** Cənab Prezident, Sizin tapşırığınızla ötən il biz 6 min ailəni əhatə edə bildik və 6 min ailəyə mikro və kiçik biznesə başlaması üçün aktivlər təmin edildi. Bu il üçün İşsizlikdən Sığorta Fondunun büdcəsinə müvafiq dəyişiklik edildi və əlavə vəsaitin cəlb olunması nəticəsində 10 min ailənin bu il Özünüməşğulluq Proqramı ilə əhatə edilməsi planlaşdırılır. Müraciətlər çoxdur, əhalinin bu proqrama çox böyük marağı, çox böyük rəğbəti var. Cari ilin ilk 6 ayı ərzində 45 minə yaxın müraciət gəlib. Bunları nəzərə alaraq, ötən ildən növbədə qalan insanlara və bu il müraciət edənlərin arasında isə əlilliyi olan şəxslərə, məcburi köçkünlərə, şəhid ailələrinə və həssas kateqoriyadan olan digər insanlara üstünlük verilir. Artıq 4 min nəfər bu il təlimlərdən keçirilib, 1100 nəfər aktivlər əldə edib. Əlavə olaraq BMT-nin İnkişaf Proqramı layihəyə cəlb olunub, 1000 nəfərə yaxın ailə məhz BMT-nin İnkişaf Proqramı tərəfindən təmin ediləcəkdir. Sizin göstərişlərinizə uyğun olaraq, Dünya Bankı ilə müzakirələr yekun mərhələyə çatıb. Sentyabr ayında Dünya Bankı layihə təklifini Azərbaycan Hökumətinə təqdim edəcək və gələn ildən bu layihəyə qoşulacaq.

**Prezident İlham ƏLİYEV:** Bəli, biz bu məsələləri beynəlxalq maliyyə qurumları ilə də müzakirə etmişik. Dünya Bankı ilə bu ilin əvvəlində müzakirələr aparılıb və biz onları bu proqrama dəvət etdik. Dünya Bankının bu proqramda iştirakı təbii ki, bizə əlavə maliyyə resursu verəcək.

May ayında açılan DOST mərkəzinin fəaliyyəti haqqında nə deyə bilərsiniz?

**Nazir Sahil BABAYEV:** Cənab Prezident, Sizin iştirakınızla DOST mərkəzi açıldıqdan sonra həqiqətən də çox böyük bir rəğbət toplayıbdır. İki aydan bir az artıq dövrdə 20 min vətəndaşımız bu mərkəzə müraciət edib. Hər bir müraciətçi xidmət gördükdən sonra orada elektron qaydada xidmətin səviyyəsini qiymətləndirir. Bu günə vətəndaşlarımızın tam məmnunluq səviyyəsi 93 faizi keçibdir, 4 faiz də əlavə olaraq qismən məmnun vətəndaşlarımızdır. Biz bu göstəricini daim bu şəkildə saxlamağa çalışacağıq. Bu gün artıq 126 xidmətin hər biri DOST mərkəzində göstərilir. Sizin göstərişlərinizə uyğun olaraq ilin sonunadək növbəti Mərkəzin açılması istiqamətində ciddi iş aparılır. Daha 3 mərkəzin açılması üçün işlər görülür. Düşünürük ki, ilin sonuna və növbəti ilin birinci rübünə bu 3 mərkəz də açılacaq və beləliklə, biz Bakının 80 faizini əhatə etmiş olacağıq. Düşünürük ki, DOST mərkəzi Sizin növbəti təşəbbüsünüz olaraq Azərbaycanın bir brendinə çevriləcəkdir.

May ayında Bakı şəhərində Beynəlxalq Sosial Təminat Agentliyinin Avropa Forumu keçirildi və 55 ölkənin sosial təminat agentliklərinin rəhbərləri DOST mərkəzini ziyarət etdilər. Onların da ilkin qiymətləndirməsi çox yüksək oldu.

**Prezident İlham ƏLİYEV:** Bu ilin əvvəlində regionların sosial-iqtisadi inkişafı üzrə dördüncü Dövlət Proqramı qəbul edilib. Bu, çox genişmiqyaslı proqramdır. Baxmayaraq ki, son illərdə infrastruktur layihələri ilə bağlı bir çox işlər görülmüşdür, bu günə qədər həllini tapmayan məsələlər də bu proqramın icrası nəticəsində öz həllini tapacaq. Bildiyiniz kimi, bu sahə bizim üçün prioritet sahədir. Həm elektrik enerjisi ilə təchizat, qazlaşdırma, içməli su sahələrində, həm də suvarma layihələrinin icrası istiqamətində bir çox işlər görülüb və gözəl nəticələr var. Beləliklə, Azərbaycanda qazlaşdırmanın səviyyəsi 96 faizə yaxınlaşır. Nadir ölkələrdə bu qədər qazlaşdırma aparılır. Elektrik enerjisi ilə bağlı böyük generasiya gücləri yaradılmışdır və Azərbaycan bu baxımdan yenə də ön sıralardadır. Çünki biz öz enerji təhlükəsizliyimizi təmin edə bilmişik. Bu il mövcud stansiyalarda aparılan yenidənqurma işləri


PASHA Bank

Azərbaycan xalqını Qurban bayramı münasibəti ilə təbrik edir!

nəticəsində əlavə generasiya gücü əldə ediləcək. Bütün bölgələrimizdə içməli su layihələri icra edilir və bu il də bir neçə şəhərin içməli su problemi həll olunacaq. Buna da çox böyük diqqət göstərilir. Hər il təxminən 100 min hektar torpağın suvarılması ya yaxşılaşır, ya da ki, suvarılmayan torpaqlara su çəkilir.
İcra edilən Proqramın əsas göstəriciləri haqqında **İqtisadiyyat naziri Şahin MUSTAFAYEV** dedi:
- Möhtərəm cənab Prezident, həqiqətən Siz 2004-cü ildən başlayaraq ölkədə regionların sosial-iqtisadi inkişafına böyük diqqət yetirirsiniz və apardığınız sosial-iqtisadi inkişaf strategiyasının əsas istiqamətlərindən biri də məhz regionların tarazlı və davamlı inkişafıdır.
Qeyd etdiyiniz kimi, artıq bu ilin əvvəlində təsdiq etdiyiniz regionların sosial-iqtisadi inkişafı üzrə dördüncü Dövlət Proqramının icrasına başlanılmışdır. Təsdiqlədiyiniz dördüncü proqramın icrası uğurla davam etdirilir. Dövlət İnvestisiya Proqramında nəzərdə tutulan vəsaitlərin böyük hissəsi, infrastruktur layihələrinin icrasına yönəldilmişdir.
Mən regionlarda yaradılmış 9 sənaye parkı və məhəllələri haqqında qısa məlumat vermək istəyirəm. Artıq sənaye pakları və məhəllələrində 78 rezident qeydiyyatdan keçib, 45 rezident artıq fəaliyyətə başlayıb. Nəzərdə tutulan 6,4 milyard manat sərmayədən artıq 5,7 milyard manatı faktiki olaraq qoyulub və bu layihələrin yerinə yetirilməsi nəticəsində 11 mindən çox yeni iş yeri açılıb. Eyni zamanda, bu layihələrin fəaliyyəti nəticəsində artıq 1,5 milyard manatlıq məhsul istehsal olunub ki, onun da 300 milyon manatlıq hissəsi ixraca yönəlib.
Həmçinin, 51 aqroparkın yaradılması istiqamətində ciddi addımlar atılıb. Artıq nəticələr var. 22 aqropark faktiki fəaliyyətdədir, bu ilin sonuna qədər 11 aqroparkın fəaliyyətə başlamasını gözləyirik. Bu layihələrin icrası nəticəsində ölkə iqtisadiyyatına 2,4 milyard manat əlavə investisiya qoyulacaqdır. Eyni zamanda, bu layihələrin icrası nəticəsində 4 mindən çox yeni iş yeri yaradılacaqdır.
İnvestisiyaların təşviqi sahəsində görülən işlər də regionların inkişafına müsbət təsir göstərir və investisiyaların təşviqi mexanizmi uğurlu nəticələr verir. Bu günədək 400-ə yaxın layihə təşviq olunub və onların nəticəsində ölkə iqtisadiyyatına 3,4 milyard manat sərmayə qoyulub. Bunların nəticəsində 16 mindən çox yeni iş yerinin açılması artıq reallaşıb.
Elektrik, qaz təchizatı, yolların çəkilməsi, xüsusilə kənd yollarının çəkilməsi və son illər ərzində bu istiqamətdə görülən işlər regionlardakı vəziyyəti ciddi surətdə dəyişib.
**Prezident İlham ƏLİYEV**: Biznes mühitinin yaxşılaşdırılması istiqamətində çox ciddi addımlar atılıb. Dünya Bankının "Doing Business" proqramı çərçivəsində Azərbaycan 10 ən islahatçı ölkə kimi tanınır və biz 32 pillə irəliləmişik və hazırda 25-ci yerdəyik. Əlbəttə ki, bu, Azərbaycana investisiyaların cəlb edilməsi üçün müsbət rol oynayır və oynayacaq. Bütün aparıcı beynəlxalq maliyyə qurumları bu sahədəki fəaliyyətimizi yüksək qiymətləndirir.
O ki qaldı, infrastruktur layihələrinə, əlbəttə, bir çox layihələr icra edilib, o cümlədən sosial infrastrukturla bağlı və bu il də icra ediləcək. Güzəştli şərtlərlə verilən kreditlərin həcmi bu il 170 milyon manat səviyyəsində idi. Bunların neçə faizi icra olunub və hazırda vəziyyət nə yerdədir?
**Nazir Şahin MUSTAFAYEV:** Bu ilin altı ayında sahibkarlara 50 milyon manatadək güzəştli kredit ayrılmışdır. İlin ikinci yarısında 120 milyon manat həcmində güzəştli kredit veriləcək.
**Prezident İlham ƏLİYEV**: Yol tikintisi də Azərbaycanda geniş vüsət alıb. Son 15 il ərzində 15 min kilometr yol çəkilib. Bu il də kənd yollarının, şəhərlərarası yolların çəkilişi nəzərdə tutulur. Təxminən min kilometrə yaxın yolun çəkilişi nəzərdə tutulur. 6 ayda təxminən 400 kilometrə yaxın avtomobil yolu çəkilib. Bu, demək olar ki, Azərbaycanda yol infrastrukturunun tamamilə yenilənməsinə gətirib çıxardı. Təsadüfi deyil ki, Davos Ümumdünya İqtisadi Forumunun hesabatında avtomobil yollarının keyfiyyətinə görə Azərbaycan dünyada 34-cü yerdədir.
Mən qeyd etdim ki, bizim büdcə daxilolmalarımız artır. Eyni zamanda, valyuta ehtiyatlarımız rekord həddə çatıb – 49 milyard dollar səviyyəsindədir. Bu, bizim böyük sərvətimizdir, böyük uğurumuzdur. Bu ilin altı ayında valyuta ehtiyatlarımız 4 milyard dollar artıb. Biz bu vəsaitdən çox qənaətlə istifadə edirik. Məhz buna görə hətta böhranlı illərdə, neftin qiyməti aşağı olan illərdə biz öz valyuta resurslarımızı qorumuşuq və artırmışıq. Məqsəd də məhz belə idi ki, biz ildən-ilə öz valyuta ehtiyatlarımızı artıraq və bununla paralel olaraq xarici dövlət borcumuzu da kifayət qədər əhəmiyyətli dərəcədə aşağı sala bilmişik. Bir il ərzində xarici borcumuz 4 faiz aşağı düşüb və təxminən 19 faiz səviyyəsindədir. Bu, dünya miqyasında ən gözəl göstəricilərdən biri hesab olunur. Ancaq strateji əhəmiyyət daşıyan layihələrə kreditlərin alınması mümkündür.



Makroiqtisadi vəziyyətlə bağlı işlərlə, planlarla bağlı **Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman RÜSTƏMOV** dedi:
- Bütövlükdə ölkənin makroiqtisadi sabitliyi onun xarici ticarət və daxili maliyyə balanslarının tarazlığından ibarətdir, ondan asılıdır. Bu istiqamətdə artıq Siz qeyd etdiniz, əlverişli şəraitdə Azərbaycanın həm xarici ticarət balansı 2,9 milyard dollar həcmində profisitlidir, o cümlədən bizim xarici ödəmə balansımız da profisitlidir. Bütövlükdə cari ildə, - artıq Siz qeyd etdiniz, - bizim ixracımız 15 faizdən çox artıb. Amma fərəhli hal odur ki, artıq qeyri-neft ixracımız ümumi ixracdan geridə qalmır, o da 15 faiz səviyyəsində artmışdır və qeyri-neft idxalının əhəmiyyətini üstələməkdədir.
Neftin qiyməti ilin əvvəlindən 20 faizə qədər artıb və 66 dollardır. Bu, bizim daxili proqnozlarımızda, yəni büdcə və sosial-iqtisadi proqnozlarda qoyduğumuz proqnozdan 6 dollar çoxdur. Siz qeyd etdiyiniz kimi, strateji valyuta ehtiyatlarımız son illərdə əhəmiyyətli dərəcədə artmışdır. Biz inamla bütövlükdə böhrandan öncəki səviyyəni bərpa etməyə doğru gedirik. 49 milyard dollar bizim ümumi daxili məhsuldan daha çoxdur. Bu, Azərbaycanın həm yüksək beynəlxalq ödəmə qabiliyyətini, həm də yüksək maliyyə təhlükəsizliyini ifadə edir.
Mərkəzi Bankın özünün də valyuta ehtiyatları artır. Cari ildə biz valyuta ehtiyatlarımızı 330 milyon dollardan çox artırmışıq. Amma diqqətinizi ona cəlb etmək istəyirəm ki, Sizin qoyduğunuz məsələ - valyuta ehtiyatlarının idarə olunmasının effektivliyinin artırılması olduqca mühüm məsələdir. Bu vəsaitin təxminən 100 milyon dollardan çoxunu biz altı ayda xarici idarəetmədən almışıq.
Bütövlükdə manatın məzənnəsi, qeyd etdiyiniz kimi, sabitdir. Xarici balansın müsbət olması, ixracın şaxələndirilməsi istiqamətində görülən işlər və valyuta təklifinin genişlənməsi və bazarda müsbət gözləntilər daxili valyuta bazarında əhəmiyyətli profisit yaradıb. Bütövlükdə bu gün Mərkəzi Bankın sterilizasiyası ilə birlikdə daxili valyuta bazarında 1 milyard ABŞ dollarından çox profisit mövcuddur. Altı ay ərzində manatın real məzənnəsi 1,2 faiz ucuzlaşıb.
Bütövlükdə inflyasiya səviyyəsinin aşağı olması şəraitində Mərkəzi Bank ardıcıl olaraq monetar siyasətin, pul-kredit siyasətinin yumşaldılması fonunda addımlar atır. Uçot dərəcəsini 2018-ci ildən bəri 18 faizdən bu gün üçün 8,25 faizə qədər endirmişik. Monetar siyasətin yumşaldılmasının digər istiqaməti bütövlükdə kəmiyyət yumşaldılması, yəni bizim iqtisadiyyata verdiyimiz pulun həcmidir. Cari ildə bu, 9 faizdir. Amma son iki ildə pul bazası deyilən bizim əsas göstəricimiz 37 faizdən çox qalxıbdır.
İqtisadiyyatda faiz dərəcələrinin aşağı düşməsini müşahidə edirik. Baxmayaraq ki, ümumi fondu formalaşdıran yüksək istehlak kreditlərinin faizləri olur. Amma biznes kreditlər, yeni verilmiş biznes kreditlərinin orta faiz dərəcəsi cari ildə 11 faizdir və 5 faizdən də aşağı düşüb. Bu, bizim uçot dərəcəsinə yaxındır. Bu, onu göstərir ki, Mərkəzi Bankın uçot dərəcəsi, faiz siyasəti artıq bütövlükdə biznes kreditləri üzrə həm də əhalinin əmanətlərinin faizinin formalaşmasında mühüm rol oynamağa başlayıb.
Bu gün biz görürük ki, dollarlaşma aşağı düşməyə başlayıb. Fiziki şəxslərin əmanətlərinin dollarlaşması 2016-cı ildə pik nöqtədəki 85 faizdən 56 faizə, kreditlərin dollarlaşması müvafiq olaraq 52 faizdən 35 faizə qədər aşağı düşüb.
Kredit aktivliyi davam edir. Cari ilin altı ayında kreditlər 3,6 faiz artıb. Lakin bu zaman başlıca olaraq bu artım 9 faizdən çox istehlak kreditləri tərəfindən baş verib. Amma biznes kreditləri, real sektorda kreditlər bir qədər - 0,3 faiz azalıb. Hesab edirik ki, biz diqqətli olmalıyıq. İstehlak kreditlərinin artması diqqətlə izlənilməlidir.
Bu gün bank sektorunda əhəmiyyətli likvidlik var. Amma biz yenə də görürük ki, biznes kreditlər artmır. Görünür, kompleks requlyativ, stimullaşdırıcı tədbirlər görmək lazım gələcək ki, bu kreditlər bütövlükdə real sektora getsin və bütövlükdə ölkədə daxili investisiya prosesini dəstəkləsin.
Əhalinin devalvasiya dövründə zərər gördüyü valyuta kreditlərinin kompensasiya olunması prosesi tam başa çatıbdır.
**Prezident İlham ƏLİYEV**: Mən büdcə daxilolmaları ilə bağlı rəqəmi səsləndirdim. Vergilər Nazirliyi və Gömrük Komitəsinin xətti ilə 440 milyon manatdan çox vəsait daxil olub. Hesab edirəm ki, biz ilin sonuna qədər bu yolla gedəcəyik. İndi proqnoz vermək çətindir, amma hesab edirəm ki, plandan əlavə təxminən 700-800 milyon manat vəsait gözlənilir.
**Vergilər naziri Mikayıl CABBAROV** çıxış edərək dedi:
-Altı ayda icmal büdcəsinə cari daxilolma Vergilər Nazirliyi tərəfindən təmin olunub və 4 milyard 954 milyon manat təşkil edib. Bunun 3 milyard 633 milyon manatı vergi və dövlət rüsumlarıdır, 1 milyard 321 milyon manatı isə məcburi sosial sığorta və işsizlikdən sığorta haqqıdır. Bu, müvafiq olaraq 108,8 faiz vergilər üzrə və müvafiq olaraq 112,5 və 116 faiz məcburi sosial sığorta və işsizlikdən sığorta üzrə rəqəmlərdir. İnanırıq ki, biz bu tempin saxlanılmasına nail olacağıq və hörmətli həmkarlarımızla yaxından işləyirik. Bizdə olan məlumata görə, Dövlət Gömrük Komitəsi də 6 ayda proqnozun 108 faiz icrasını təşkil edib. Bu nəticələrin kökündə duran əsas amillər, ilk növbədə, vergi siyasəti, inzibatçılıq və Sizin rəhbərliyinizlə həyata keçirilən islahatlar olub. İkincisi, həmkar qurumlarımızla yaxından, komanda şəklində birgə işimiz, məlumat mübadiləmiz. Üçüncüsü, vergiödəyiciləri ilə münasibətlərimizin təbiətinin dəyişdirilməsi və nəhayət, kölgə iqtisadiyyatı ilə mübarizədə uğurlarımız, o cümlədən dövriyyə və iş yerlərinin kölgədən çıxarılması.
Vergi daxilolmalarında qeyri-neft sektorunun payı 70,1 faizə çatıb. Bu, 2018-ci ildəki 65,8 faizlə müqayisədə əhəmiyyətli artımdır. Ümumilikdə, qeyri-neft sektoru üzrə daxilolmanın artım tempi 14,3 faiz təşkil edib. Bu da iqtisadiyyatın müvafiq sektorunun artım tempini üstələyir və illik proqnozun 51,1 faizini artıq icra etmişik. Qeyri-neft sektorunun özündə isə özəl sektorun payı çox yüksəkdir – 77 faiz özəl sektor tərəfindən təmin edilib. Vergi islahatları nəticəsində əmək müqavilələrinin sayında əhəmiyyətli artım qeydə alınıb. Toplam 6 ay ərzində 101 min yeni əmək müqaviləsi qeydiyyata alınıbdır. Bu rəqəmin 77 mini özəl qeyri-neft sektorunda qeydə alınıbdır. Bu da Sizin göstərişinizlə həyata keçirilən vergi güzəşti islahatının birbaşa nəticəsidir.
Son olaraq, vergi nəzarəti tədbirlərinin azaldılmasını mən xüsusi olaraq qeyd etmək istəyirəm. Belə ki, 2018-ci illə müqayisədə səyyar vergi yoxlamalarının sayı 2,7 dəfə, 2017-ci illə müqayisədə isə 6 dəfə azaldılıb. Sevindirici hal ondan ibarətdir ki, biz həmişə özəl sektoru, ümumiyyətlə, iqtisadiyyatın, vergi siyasətinin və inzibatçılığın təsirində izləməyə çalışırıq. Özəl sektorun bank sistemində Azərbaycan manatı ilə olan hesablarında qalıq artımını nəzərinizə çatdırmaq istəyirəm. Bir il ərzində 49 faiz artıb, ilin əvvəlindən isə 20 faiz. Bu da hesab edirik ki, həm biznesin nağdlaşmadan əməliyyatlara keçməsinin, həm də ölkə iqtisadiyyatına olan inamın göstəricisidir.
Büdcənin icrası ilə bağlı vəziyyət barədə **Maliyyə naziri Samir ŞƏRİFOV** çıxış edərək dedi:
-2019-cu ilin dövlət büdcəsinin 6 aylıq icrasının göstəriciləri ölkə iqtisadiyyatında baş verən dinamik prosesləri təsdiqləyir. Belə ki, dövlət büdcəsinin xərcləri 100,2 faiz səviyyəsində icra olunub – 10 milyard 951 milyon manat. Dövlət büdcəsinin gəlirləri isə 10 milyard 406 milyon manat məbləğində icra edilib. Dövlət büdcəsinin xərcləri artıqlaması ilə icra olunub. Deməliyəm ki, büdcəni əsas təmin edən orqanlar, yəni Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsi tərəfindən proqnoz göstəriciləri 108 faiz icra olunub.
Burada vergi və gömrük rüsumları yığımlarının təmin olunmasında böyük məsələlərdən biri bizim dövlət əsaslı vəsait qoyuluşu xərclərimizin ahəngdar icra olunmasıdır. Qeyd etməliyəm ki, cari ildə 5 milyard 980 milyon dövlət əsaslı vəsait qoyuluşu üzrə xərclərimizin 37 faizi hələ ki, 6 ay ərzində icra olunub. Bunun bəzi obyektiv səbəbləri var. Onunla bağlıdır ki, bu məbləğdə təxminən 1 milyard 140 milyon manat kreditlər nəzərdə tutulub. Bu kreditlərin istifadə əmsalı əfsuslar olsun ki, o qədər də yüksək deyil. Hesab edirik, bizim aidiyyəti qurumlarımız bu sahədə işlərini sürətləndirməlidirlər.
Dövlət büdcəsinin icrası tam təmin olunur. Dövlət borcu sahəsində də bütün öhdəliklər yerinə yetirilməkdədir. Orta və uzunmüddətli dövlət borcunun idarə edilməsi strategiyasına tam əməl olunmaqdadır. Dövlət tərəfindən bəzi əhəmiyyətli layihələrə dövlət zəmanətləri verilir. O cümlədən belə mühüm layihələrdən biri də Cənub Qaz Dəhlizi layihəsidir. Sevindirici haldır, bu layihə üzrə nəzərdə tutulmuş maliyyələşdirməyə tam ehtiyac yaranmamışdır, lakin xarici maliyyə qurumları ilə danışıqlar aparılmışdı, yəni onlar bu vəsaitləri ayırmağa hazır idilər. Amma birinci paket olaraq biz 2 milyardlıq borclanmadan imtina etdik, buna ehtiyac yaranmamışdı. İndi də əlavə sevindirici haldır ki, artıq Çoxtərəfli İnvestisiyalar üzrə Zəmanət Agentliyi – MİGA ilə bizim Cənub Qaz Dəhlizi şirkəti tərəfindən kredit müqaviləsi bağlanmışdır - 750 milyon dollar məbləğində. İndi isə o kreditin götürülməsinə ehtiyac yoxdur. Yəni, həm o layihə üzrə qənaət hesabına, həm də layihənin işə salınması ilə əlaqədar bizim o şirkətimiz artıq sərbəst maliyyə axınına malik olub və o, vəsait hesabına bu borcları təmin edir.
**Prezident İlham ƏLİYEV:** Kənd təsərrüfatında bu il rekord göstərici əldə edilib. Qeyd etdiyim kimi, bu, aparılan islahatlar nəticəsində mümkün olub. Müxtəlif istiqamətli addımlar kənd təsərrüfatında canlanmaya gətirib çıxarıb. Əlbəttə ki, dövlət dəstəyi hər zaman olduğu kimi, bu il də göstərilir, bundan sonra da göstəriləcək. Bu istiqamətdə atılan addımlar artıq real nəticələr verir və kənd təsərrüfatı uğurla inkişaf edir.
Beləliklə, bostan məhsulları təxminən 40 faiz, meyvə 20 faizdən çox, barama 25 faiz, tərəvəz 14 faiz. Yəni, ixracımız da artır və əlbəttə ki, növbəti illərdə biz bu istiqamətdə öz siyasətimizi apararaq özümüzü daha da böyük nəticələrə çatdıracağıq.
Bu sahədə görülmüş işlərlə bağlı **Kənd Təsərrüfatı Naziri İnam KƏRİMOV** dedi:
- Bu il bizim qarşımızda duran əsas vəzifələrdən biri fermerlərin daim yanında olmaq, onların üzləşdikləri problemlərin həllində yaxından iştirak etməkdir. Bizim əsas qayğımız və vəzifəmiz əkin balansımızı təşkil edən taxılçılıqla bağlı olub. Bu il 1 milyon 12 min hektarda taxıl əkini həyata keçirilib. Bunun 670 min hektarını buğda, 342 min hektarını isə arpa əkini təşkil edib. Həyata keçirilən tədbirlər nəticəsində əsas məsələ düzgün texniki təminatın təmin edilməsi olub. Belə ki, hər il fermerlərimiz bu sahə ilə bağlı çoxsaylı müraciətlər ediblər. Amma dislokasiya sisteminin qurulması, xüsusilə də müasir avadanlıqlardan istifadə edilməsi, kombaynlara GPS quraşdırılması və onların düzgün dislokasiyası nəticəsində bu il taxıl biçini 20 gün tez başa çatıb. Məhsuldarlıq da bu il daha yüksək olub. Ötən ilə nisbətən hər hektardan təxminən 2 sentner daha çox məhsul əldə edilib.
Sizin lizinq fəaliyyəti ilə bağlı həyata keçirdiyiniz islahat nəticəsində artıq bazarda tam liberallaşma mövcuddur. Artıq dövlət tərəfindən tətbiq edilən güzəştlər və subsidiyalar bütün təchizatçı şirkətlərə tətbiq edilir. Bazarda texnikanın qiymətində təxminən 30 faiz ucuzlaşma baş verib.
Subsidiyalarla bağlı Sizin həyata keçirdiyiniz islahat nəticəsində, hesab edirik ki, gübrələrlə əlaqədar bu liberallaşma gələn ildən tam həyata keçiriləcək.
Möhtərəm cənab Prezident, qarşımıza qoyduğunuz əsas vəzifələrdən biri elektron kənd təsərrüfatının təşviqidir. Hazırda artıq 300 mindən çox fermer elektron kənd təsərrüfatında qeydiyyatdan keçib. Sizin tərəfinizdən həyata keçirilən digər vacib islahat yeni subsidiya sistemi ilə bağlıdır. 2020-ci ilin yanvar ayından artıq subsidiyalar yeni sistemlə veriləcək.
Müşavirəyə yekun vuran **Prezident İlham ƏLİYEV** dedi:
- Bu sahədə də işlər uğurla gedir. Kənd təsərrüfatı hər bir ölkə üçün önəmli sahədir. Ərzaq təhlükəsizliyinin təmin edilməsi bizim üçün əsas vəzifədir, biz öz ixrac imkanlarımızı da genişləndiririk. Fermerlərə əlavə güzəştlər edilir. Bu il 700-dən çox texnikanın satılması artıq təmin edilibdir. Əvvəlki illərdə böyük sayda kənd təsərrüfatı texnikasının alınması hesabına biz bu sahənin inkişafına nail ola bildik. İndi Azərbaycanda azot gübrəsi zavodu da fəaliyyət göstərir.
Məndə olan məlumata görə, bizdə nağdsız ödənişlər hələ də aşağı səviyyədədir. Hesab edirəm ki, bu sahədə çox ciddi addımlar atılmalıdır. Çünki biz çalışmalıyıq ki, nağdsız ödənişlərin həcmi artsın. Posterminalların sayı da artmalıdır. Ancaq mənə verilən məlumata görə, onların sayı artmır. Bu problem öz həllini tapmalıdır. Çünki nağdsız ödənişlərin aşağı səviyyədə olması, əlbəttə ki, kölgə iqtisadiyyatını qidalandırır. Kölgə iqtisadiyyatı ilə mübarizə bizim üçün indi əsas məsələlərdən biridir. Bu gün burada verilən məlumat bunu göstərir ki, bu istiqamətdə önəmli addımlar atılıb. Nağdsız ödənişlərin aşağı səviyyədə olması, əlbəttə ki, qəbuledilməzdir. Tapşırıq verirəm ki, bu məsələ təhlil edilsin və ciddi addımlar atılmalıdır. Nağdsız ödənişlərin ümumi həcmi Azərbaycanda 2 milyard 300 milyon dollardır. Elədir?
**Prezidentin İqtisadi siyasət və sənaye məsələləri üzrə köməkçisi Natiq ƏMİROV**: Bəli, nağd çıxarılan məbləğlər istisna olmaqla.
**Prezident İlham ƏLİYEV:** Bu sahəyə çox ciddi diqqət göstərilməlidir.
Baxmayaraq ki, inflyasiya aşağı səviyyədədir, ancaq bəzi hallarda süni qiymət artımı da müşahidə olunur. Müvafiq qurumlar bu məsələ ilə ciddi məşğul olmalıdırlar. Mənə məlumat verilən kimi, dərhal göstərişlər verilir. Yəni, istehlak bazarına daim nəzarət olmalıdır. Bakı şəhərində bir çox layihələr icra edilir, o cümlədən kommunal təsərrüfat yenilənir. Bu gün Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Ancaq, eyni zamanda, mövcud problemlər də var. Bu problemlərin həlli daim diqqət mərkəzində olmalıdır.
İnşaat sektorunun canlandırılması istiqamətində addımlar atılır. Onu da bildirməliyəm ki, ilin əvvəlindən 60 min yeni iş yeri açılmışdır. Onların bir hissəsi dövlət sektorunda açılmışdır.
İqtisadi artım üçün yeni mənbələr axtarılmalıdır ki, bu, dayanıqlı olsun. Qeyri-neft sektorunun inkişafı burada əsas rol oynayır. Ancaq onu da bilməliyik ki, bu gün iqtisadi inkişafımız üçün əsas sektor neft-qaz sektorudur. Bu sahədə də çox önəmli addımlar atılıb. Cənub Qaz Dəhlizinin icrası ilə bağlı çox əhəmiyyətli işlər görülüb. Hazırda Cənub Qaz Dəhlizinin icrası sona yaxınlaşır. Artıq onun sonuncu seqmentinin icrası başa çatır. Bu, tarixi layihədir. Cənub Qaz Dəhlizinin fəaliyyətə başlaması nəticəsində Azərbaycan əlavə gəlir əldə edəcəkdir. Hesab edirəm ki, altı ayda görülmüş işlər təqdirəlayiqdir.
Azərbaycan dayanıqlı inkişaf yolu ilə gedir. Biz beynəlxalq maliyyə qurumları ilə fəal işləyirik və bu iş bundan sonra da davam etdiriləcək. Yəni, iqtisadiyyatın yeni modeli – bu gün tələbat bundan ibarətdir. 2025-ci ilə qədər nəzərdə tutulmuş Strateji Yol Xəritəsi bu məsələlərə cavab verir.
Azərbaycan innovasiyalar, müasir idarəetmə, liberal iqtisadiyyat yolu ilə inkişaf etməlidir. Təsadüfi deyil ki, bunu beynəlxalq maliyyə qurumları qeyd edir. Biznes mühitinin yaxşılaşdırılması istiqamətində aparılan işlər bunu göstərir ki, bu gün iqtisadi sahədə Azərbaycan dünya miqyasında uğurla inkişaf edən ölkələr sırasındadır. Bununla paralel olaraq, biz sosial sahəyə də çox böyük diqqət göstəririk. Bu il reallaşan layihələr - milyardlarla dollar həcmində ölçülən bu layihələr, bu təşəbbüslər bizim niyyətimizi, bizim siyasətimizi göstərir.
Göstərir ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bizim iqtisadi gücümüz sosial sahəyə bilavasitə təsir etməlidir və edir. Biz bundan sonra da bu yolla gedəcəyik.

# Azərbaycan vətəndaşının sosial məsələlərinin həlli daim diqqət mərkəzindədir



Avqustun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Pirallahı rayonunda olublar.

Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanov Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya görülən işlər və rayonun perspektiv inkişafı ilə bağlı layihələr barədə məlumat verib.

Sonra dövlətimizin başçısı və birinci xanım Pirallahı Rayon İcra Hakimiyyəti üçün inşa edilən binada yaradılan şəraitlə tanış olublar.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Pirallahı rayonunda yeni inşa olunmuş Gənclər Mərkəzinin, YAP Pirallahı Rayon Təşkilatının yeni inzibati binasının və yeni inşa olunmuş “Mirvari” Park Kompleksinin açılışında iştirak ediblər.

Beş hektar sahəsi olan “Mirvari” Park Kompleksində uşaqlar üçün mini futbol və iki oyun meydançası, müxtəlif attraksionlar, yelləncəklər, idman qurğuları, söhbətgahlar və fəvvarə quraşdırılıb. Müasir işıqlandırma sistemi ilə təchiz olunan bu istirahət guşəsində, eyni zamanda, müxtəlif tədbirlərin keçirilməsi üçün səhnə də inşa edilib.

Dövlətimizin başçısı və birinci xanım parkda Qarabağ müharibəsi əlillərinin “ASAN xidmət”in “Ailə Biznesinə Asan Dəstək” proqramı çərçivəsində nümayiş etdirilən rəsm əsərlərindən və müxtəlif səpkidə dekorativ əl işlərindən ibarət sərgiyə baxıblar.

İstirahət məkanında “Ahılların Günərzi Mərkəzi” də fəaliyyət göstərir. Mərkəz Prezident İlham Əliyevin “Xüsusi qayğıya ehtiyacı olan uşaqlara və digər şəxslərə göstərilən sosial xidmətlərin genişləndirilməsi üçün əlavə tədbirlər haqqında” 2019-cu ilin iyun ayında imzaladığı Sərəncama əsasən yaradılıb. Burada hər gün sosial yardıma ehtiyacı olan 50 ahıla növbəlilik əsasında pulsuz xidmət göstəriləcək.

Sonra dövlətimizin başçısı və birinci xanım Pirallahı rayonunda qəzalı binaların sakinləri üçün



inşa edilən kompleksə gələrək, binalardakı mənzillərdə yaradılan şəraitlə tanış olublar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 7-də Pirallahı rayonunda “Nərəkənd” balıqyetişdirmə kompleksi layihəsi çərçivəsində yaradılan “NərəMİZ” balıqyetişdirmə zavodunun istehsalat prosesi ilə tanış olublar.

“CMS Properties” şirkətinin rəhbəri Eyvaz Eyvazov dövlətimizin başçısına və birinci xanıma müəssisə haqqında məlumat verib. Pirallahı adasının girişində təməli Prezident İlham Əliyev tərəfindən 2017-ci ildə qoyulan kompleksin qapalı tipli istehsal sexləri inşa olunub. Ümumi sahəsi altı hektar olan bu müəssisənin ilkin mərhələsində illik istehsal gücü 100 ton nərə, 25 ton çökə əti və 4 ton qara kürüdən ibarət olacaq. Burada 30 iş yerinin açılması nəzərdə tutulur və perspektivdə onların sayı 70-ə çatdırılacaq. Kompleks çərçivəsində açıq tipli ferma, mehmanxana, yaxt-klub



və kotteclər də layihələndirilib.

“NərəMİZ” balıqyetişdirmə zavodunda müasir texnologiyalarla suyun təkrar dövriyyəsini təmin edən qapalı tipli fermanın inşası tamamlanıb. Qapalı sistemdə suyun təkrar dövriyyəsini təmin edən texnoloji proses nərə balığı istehsalının təbii faktorların təsirindən qorunmasına və yetişdirmə templərinin artmasına imkan yaradır. Burada yetişdirilən nərə balığı inkubasiya olunmuş yumurta mərhələsindən etibarən təxminən 2 il müddətinə 5 kiloqram əmtəə çəkisinə çatdırılır. Layihənin növbəti mərhələsində dənizdə qəfəs təsərrüfatının qurulması nəzərdə tutulur. Hazırda münasib yerin seçilməsi üçün ölçmə-axtarış işləri aparılır. Nəticədə ümumi illik istehsalat həcminin 200 ton balığa və 20 ton kürüyə çatdırılması planlaşdırılır. Kompleksin fermalarında yetişdirilmiş, habelə balıqçıların dənizdə tutduğu balığın mərkəzləşdirilmiş qaydada və zəruri normativlərə uyğun satışının təşkili məqsədilə zəruri şərait yaradılıb, balıq bazarı inşa olunub.

Bu layihənin icrası ölkə iqtisadiyyatının qeyri-neft sektorunun inkişafı, o cümlədən idxalı əvəzləyəcək məhsulların istehsalı baxımından mühüm əhəmiyyətə malikdir.

Son illərdə aparılan iqtisadi islahatlar nəticəsində qeyri-neft sahəsində mühüm nailiyyətlər əldə olunub, bu sektorun ümumi daxili məhsulda xüsusi çəkisi artıb, rəqabətqabiliyyətli malların istehsalı genişlənib.






# Sənaye parklarında 1,5 milyard manatlıq məhsul istehsal edilib



Bu barədə İqtisadiyyat naziri Şahin Mustafayev AZƏRTAC-a müsahibəsində deyib. Nazir qeyd edib ki, bu məhsulların 300 milyon manatlıq hissəsi xarici ölkələrə ixrac olunub. Sevindirici haldır ki, bu günlərdə Balaxanı Sənaye Parkının rezidenti istehsal etdiyi mebel məhsullarının ABŞ-a ixracına başlayıb.

O, həmçinin qeyd edib ki, indiyədək sənaye parklarında 40-dan çox rezident qeydiyyata alınıb

Nazir deyib ki, bu rezidentlərin 24-ü artıq istehsal fəaliyyətinə başlayıb.

Bu il daha 10 rezident istehsala başlayacaq. Hazırda Azərbaycanda 5 sənaye parkı - Sumqayıt Kimya, Balaxanı, Mingəçevir, Qaradağ və Pirallahı sənaye parkları fəaliyyət göstərir.

# ARDNF qızıl ehtiyatlarının statistikası hesabatı ilə bağlı açıqlama yayıb

Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) Ümumdünya Qızıl Şurasının (World Gold Council) avqustun 1-də yenilədiyi dünya ölkələri üzrə rəsmi qızıl ehtiyatlarının statistikası hesabatında Azərbaycanın bu reytinqdə yer alması ilə bağlı bildirib ki, qeyd edilən qurum ölkələrin qızıl rezervləri barədə məlumatı Beynəlxalq Valyuta Fondundan (BVF) əldə edir və bu statistika özündə əsasən Maliyyə Nazirliyi və Mərkəzi Banklar kimi monetar və fiskal qurumların balansında olan qızıl ehtiyatlarını birləşdirir.

Fonddan bildirilib ki, bu səbəbdən Dövlət Neft Fondunun qızıl investisiyaları qurumun rüblük hesabatında öz əksini tapmayıb.

Qeyd edilib ki, ARDNF-nin İnvestisiya siyasəti və İnvestisiya qaydalarının tələblərinə uyğun olaraq iyunun 30-na ARDNF-nin investisiya portfelinə daxil olan qızılın miqdarı 95,47 ton (3 069 414,783 troya unsiyası və ya 4 356,4 milyon ABŞ dolları) təşkil edir.

ARDNF-nin investisiya portfelinə daxil olan qızıl yatırımları ilə bağlı məlumatlar Fondun rüblük və illik hesabatları vasitəsilə mütəmadi olaraq ictimaiyyətə açıqlanır.

# Payın alğı-satqısından əldə olunan gəlirə görə vergi azadolmaları



Vergi Məcəlləsinin 102.1.27 və 106.1.19-cu maddələrinə əsasən, vergiödəyicisinin azı 3 il ərzində mülkiyyətində olan iştirak payının və ya səhmin təqdim edilməsindən əldə olunan gəlirlərinin 50 faizi gəlir, həmçinin mənfəət vergisindən azaddır.

Vergilər Nazirliyinin Media və kommunikasiya mərkəzindən AZƏRTAC-a bildirilib ki, gəlir (mənfəət) vergisindən azadolmanın tətbiq edilməsi üçün ilkin şərt payın və ya səhmin azı 3 il ərzində şəxsin mülkiyyətində olması müəyyən olunub.

Belə ki, payın bir hissəsi ən azı 3 il, digər hissəsi isə bu müddətdən az vaxtda mülkiyyətdə olduqda, azadolma yalnız ən azı 3 il mülkiyyətdə olmuş paya tətbiq ediləcək.

# Vergi daxilolmalarında ən yüksək artım rabitə sahəsində olub



Cari ilin yanvar-iyun aylarında qeyri-neft-qaz sektorunun bütün fəaliyyət sahələrində vergi daxilolmalarının artımı müşahidə edilib.

Vergilər Nazirliyinin Media və kommunikasiya mərkəzindən bildirilib ki, daxilolmalarda ən yüksək artım templəri rabitə sahəsində (48 faiz), bank və sığorta sektorunda (45 faiz), nəqliyyat sahəsində (23 faiz), xidmət sektorunda (21 faiz), tikinti sahəsində (7,7 faiz) və digər fəaliyyət sahələrində (19,8 faiz) qeydə alınıb.

Vergi inzibatçılığının təkmilləşdirilməsi və rəqəmsallaşması sahəsində görülən işlər nəticəsində iqtisadi fəaliyyət sahələrində real vergi potensialının aşkarlanması və bu əsasda büdcəyə vergi daxilolmalarının artırılması təmin edilməkdədir.

# Hüquqi şəxsin təsisçisinin sahibkarlıq fəaliyyəti ilə bağlı məhdudiyyəti yoxdur

**Hüquqi şəxsin təsisçisi fiziki şəxs kimi vergiödəyicisi ola bilərmi?**

Vergilər Nazirliyinin Media və kommunikasiya mərkəzindən AZƏRTAC-a bildirilib ki, mülki qanunvericilikdə təsisçi ilə onun təsis etdiyi müəssisəyə ayrı-ayrı şəxslər kimi baxılır, hüquqi şəxsin təsisçisi hüquqi şəxsin öhdəlikləri üçün, hüquqi şəxs isə təsisçinin öhdəlikləri üçün cavabdehlik daşımır.

Həmçinin qeyd olunub ki, hər hansı hüquqi şəxsin təsisçisinin, eyni zamanda, fərdi sahibkar kimi vergi orqanında uçota alınmasına və sahibkarlıq fəaliyyəti həyata keçirməsinə məhdudiyyət nəzərdə tutulmayıb.

# Turpaketlərdən əldə edilən gəlirdən verginin tutulması



**Turizm şirkətlərinin vergi öhdəlikləri necə hesablanır?**

Vergilər Nazirliyinin Media və kommunikasiya mərkəzindən bildirilib ki, turizm fəaliyyətindən əldə edilən ümumi gəlirdən Vergi Məcəlləsi ilə müəyyən olunmuş qaydada gəlirin əldə edilməsi ilə bağlı çəkilən xərclər və icbari ödənişlər çıxıldıqdan sonra qalan məbləğdən mənfəət vergisi hesablanıb dövlət büdcəsinə ödənilir.

Qeyd olunub ki, malların təqdim edilməsi, işlərin görülməsi, xidmətlərin göstərilməsi ƏDV-nin vergitutma obyektidir. Vergi tutulan əməliyyatın dəyəri isə vergiödəyicisinin müştəridən və ya hər hansı digər şəxsdən aldığı, yaxud almağa hüququ olduğu haqqın ƏDV nəzərə alınmadan məbləği əsasında müəyyən edilir. Bu baxımdan da istər rezident şəxslərdən, istərsə də qeyri-rezident şəxslərdən göstərilən xidmətlərin müqabilində əldə olunacaq tam məbləğ ƏDV-yə cəlb edilməlidir. Yuxarıda qeyd olunan halda, qeyri-rezident turizm şirkətlərinə ödənilən xidmət haqlarından Azərbaycan mənbəyindən əldə olunmuş gəlir kimi ödəmə mənbəyində 10 faiz dərəcə ilə vergi tutulmalıdır. Xidmətlər digər dövlətin ərazisində həyata keçirildiyi üçün həmin xidmətlər Azərbaycan Respublikasında ƏDV-nin vergitutma obyektini təşkil etmir.

Vergi Məcəlləsinin 104-cü maddəsinə əsasən, rezident müəssisə üçün vergitutma obyekti onun mənfəətidir.

Vergiödəyicisinin bütün gəlirləri, o cümlədən onun Azərbaycan Respublikasının hüdudlarından kənarda daimi nümayəndəlikləri vasitəsilə əldə etdiyi gəlirləri, Azərbaycan Respublikasının hüdudlarından kənarda əldə etdiyi dividend, faiz, royalti (vergidən azad edilən gəlirdən başqa) ilə bu Məcəllənin X fəslində göstərilən, gəlirdən çıxılan xərc (vergidən azad edilən gəlirlər üzrə çəkilən xərclərdən başqa) arasındakı fərq mənfəətdir.

# “AzerGold” QSC qızıl və gümüş istehsalında rekorda nail olub

“AzerGold” QSC tərəfindən Çovdar filiz emalı sahəsində əməliyyat işləri üzrə aparılan optimallaşdırma tədbirləri, işçi heyətinin təcrübə və peşəkarlığının artması və tətbiq olunan texnoloji həllər hasilatda müsbət nəticələrini verməkdədir.

QSC-dən bildirilib ki, cari ilin iyul ayında “AzerGold” QSC 2019-cu il üçün rekord həcmdə qızıl istehsal edib. Hesabat dövründə 5495 unsiya qızıl istehsal edilib ki, bu da nəzərdə tutulan planı 23 faiz üstələyib. Gümüş istehsalı isə 10 min 995 unsiya təşkil edərək, nəzərdə tutulan planı 41 faiz üstələyib və bununla da Cəmiyyətin bütün fəaliyyəti dövründə rekord göstəriciyə yüksəlib.

Hesabat dövründə filiz xırdalanması nəzərdə tutulan planı 31 faiz üstələyərək 130 min 810 ton təşkil edib ki, bu da Cəmiyyətin bütün fəaliyyəti dövründə rekord göstəricidir.

Cari hasilat prosesinin optimallaşdırılması və qiymətli metalların hasilatının maya dəyərinin azaldılması ilə yanaşı, “AzerGold” QSC yeni əlvan metal yataqları istismara cəlb edilməsi məqsədi ilə kəşfiyyat işlərini uğurla davam etdirir. Belə ki, iyul ayında 7285 metr geoloji buruq qazma işləri görülüb, ilin sonunadək bu rəqəmin 40 min metrə çatdırılması planlaşdırılır. Kəşfiyyat proqramı Çovdar yatağının yerüstü və yeraltı ehtiyatlarının artırılmasını, qızıl və gümüşə perspektivli olan Ağyoxuş, Mərək və Tülallar sahələrində buruq-qazma işlərini və ehtiyatların təsdiqini, habelə Filizçay polimetal yatağında ehtiyatların beynəlxalq standartlar əsasında qiymətləndirilməsini nəzərdə tutur.

Hazırda “AzerGold” QSC tərəfindən aparılan kəşfiyyat işləri gələcəkdə milli mədənçilik sənayesinin mənfəətini artırmaqla yanaşı, regionların sosial-iqtisadi tərəqqisi, həmçinin qeyri-neft sektorunun daha da dinamik inkişafına töhfə verməyə hədəflənib.

# ƏDV ödəyicilərinin sayında 40 faiz artım olub



İqtisadiyyatın və dövriyyələrin şəffaflaşdırılması şəraitində dövriyyədə olan nağd pul kütləsinin manatla geniş pul kütləsində xüsusi çəkisi 2018-ci ilin əvvəlindəki 60,1 faizdən cari il iyunun sonuna 52,9 faizə enib.

Vergilər Nazirliyinin Media və kommunikasiya mərkəzindən AZƏRTAC-a bildirilib ki, bu, şəffaflaşma və nağdsız ödənişlərin genişləndirilməsi nəticəsində mümkün olub.

Qeyd olunub ki, iqtisadiyyatda leqallaşma prosesləri özünü aktiv vergiödəyicilərinin, o cümlədən ƏDV ödəyicilərinin və aktiv obyektlərin sayında da büruzə verir.

Belə ki, cari il iyulun 1-nə ƏDV ödəyicilərinin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 40 faiz, aktiv obyektlərin sayı isə 14 faiz artıb.

# Səhv məlumat verən fermerlər subsidiyalardan məhrum ola bilər



Növbəti il üçün nəzərdə tutulan mexanizm sayəsində fermerlərin verdiyi məlumatların doğruluğunu araşdırmaq mümkün olacaq. Elektron sistem vasitəsilə aparılan müşahidə nəticəsində fermerin səhv məlumat verdiyi məlum olarsa, onun səhvi təqribən 5 faizədək olduqda bağışlanacaq.

Bu sözləri jurnalistlərə müsahibəsində Aqrar Kredit və İnkişaf Agentliyinin sədri Mirzə Əliyev deyib.

Agentliyin sədri bununla bağlı xüsusi meyarların da müəyyən olunduğunu diqqətə çatdırıb. Belə ki, səhv məlumatlar 50 faizi keçdikdə cari il və növbəti il üçün həmin fermerin torpağına subsidiya verilməyəcək. Bu mexanizmlər bəzi fermerləri bu cür neqativ hallardan qaçırmaq məqsədi daşıyır.

# Rusiyada "Azərbaycan nemətləri" mağazaları açılır

Azərbaycanın xarici ölkələrdə 10 ticarət və şərab evi açılıb, Rusiya, Qazaxıstan və digər ölkələrdə ticarət evlərinin açılması ilə bağlı işlər davam etdirilir.

Bu barədə AZƏRTAC-a məxsusi müsahibəsində İqtisadiyyat naziri Şahin Mustafayev deyib.

Nazir Ş.Mustafayev qeyd edib ki, Rusiyanın Moskva şəhərində 15 Azərbaycan şirkəti tərəfindən istehsal olunan 200-dən çox çeşiddə məhsulun təqdim olunduğu "Azərbaycan nemətləri" mağazası fəaliyyətə başlayıb, Sankt-Peterburq, Yekaterinburq və digər şəhərlərində də bu cür mağazaların açılması istiqamətində işlər aparılır.

# Nazir: Vergi daxilolmalarında qeyri-neft sektorunun payı 70,1 faizə çatıb

"Altı ayda icmal büdcəsinə cari daxilolma Vergilər Nazirliyi tərəfindən təmin olunub və 4 milyard 954 milyon manat təşkil edib".

Trend-in məlumatına görə, bunu Vergilər naziri Mikayıl Cabbarov Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı müşavirədə deyib.

Nazir bildirib ki, bunun 3 milyard 633 milyon manatı vergi və dövlət rüsumlarıdır, 1 milyard 321 milyon manatı isə məcburi sosial sığorta və işsizlikdən sığorta haqqıdır:

"Bu, müvafiq olaraq 108,8 faiz vergilər üzrə və müvafiq olaraq 112,5 və 116 faiz məcburi sosial sığorta və işsizlikdən sığorta üzrə rəqəmlərdir. İnanırıq ki, biz bu tempin saxlanılmasına nail olacağıq və hörmətli həmkarlarımızla yaxından işləyirik.

Vergi daxilolmalarında qeyri-neft sektorunun payı 70,1 faizə çatıb. Bu, 2018-ci ildəki 65,8 faizlə müqayisədə əhəmiyyətli artımdır. Ümumilikdə, qeyri-neft sektoru üzrə daxilolmanın artım tempi 14,3 faiz təşkil edib. Bu



da iqtisadiyyatın müvafiq sektorunun artım tempini üstələyir və illik proqnozun 51,1 faizini artıq icra etmişik. Qeyri-neft sektorunun özündə isə özəl sektorun payı çox yüksəkdir – 77 faiz özəl sektor tərəfindən təmin edilib. Vergi islahatları nəticəsində əmək müqavilələrinin sayında əhəmiyyətli artım qeydə alınıb. Toplam 6 ay ərzində 101 min yeni əmək müqaviləsi qeydiyyata alınıbdır.

Bu rəqəmin 77 mini özəl qeyri-neft sektorunda qeydə alınıb. Onu da qeyd etmək istəyirəm ki, vətəndaşlarımızın sərəncamında yalnız bu vergi güzəştindən qalan məbləğ 6 ay ərzində 150 milyon manat təşkil edib, hansı ki, əvvəlki illərdə vergi qisminə ödənilirdi. Bu proses davam edir. Bu günə olan rəqəmlər də onu göstərir ki, iyul ayında da bu proses eyni sürətlə davam edir. Aktiv obyektlərin sayında artım müşahidə edirik – 14 faiz aktiv, əlavə dəyər vergiödəyicilərinin sayında isə 40 faiz artım müşahidə edirik.

Son olaraq, vergi nəzarəti tədbirlərinin azaldılmasını mən xüsusi olaraq qeyd etmək istəyirəm. Belə ki, 2018-ci illə müqayisədə səyyar vergi yoxlamalarının sayı 2,7 dəfə, 2017-ci illə müqayisədə isə 6 dəfə azaldılıb. Sevindirici hal ondan ibarətdir ki, biz həmişə özəl sektoru, ümumiyyətlə, iqtisadiyyatın, vergi siyasətinin və inzibatçılığın təsirində izləməyə çalışırıq. Özəl sektorun bank sistemində Azərbaycan manatı ilə olan hesablarında qalıq artımını nəzərinizə çatdırmaq istəyirəm. Bir il ərzində 49 faiz artıb, ilin əvvəlindən isə 20 faiz. Bu da hesab edirik ki, həm biznesin nağdlaşmadan əməliyyatlara keçməsinin, həm də ölkə iqtisadiyyatına olan inamın göstəricisidir".

# DOĞMA YURD YERLƏRİ – YENİ STRATEJİ REALLIQLAR MÜSTƏVİSİNDƏ

Azərbaycanın sıçrayışlı iqtisadi inkişafını, beynəlxalq nüfuzunu təkcə neft amili ilə bağlamaq düzgün olmazdı. Dünyada neft hasil edən çox ölkələr var, lakin onlar inkişaf səviyyəsinə görə bir-birindən fərqlənirlər. İkinci vacib məsələ budur ki, ölkəmizdə müharibə gedir, torpaqlarımızın 20 faizi işğal olunub, bir milyona qədər qaçqın və məcburi köçkün vəziyyətinə düşən vətəndaşlarımız var. Bu qədər ağır iqtisadi və maliyyə yükünü öz üzərinə götürən Azərbaycan Respublikası 15 il ərzində güclü iqtisadi və siyasi təmələ söykənən müasir dövlət qura bilmiş, regionların ən güclü ölkəsinə çevrilmişdir. Qısa zaman kəsiyində iqtisadiyyata 231 milyard dollar sərmayə yatırmaq, respublikanın sosial-iqtisadi infrastrukturunu kökündən dəyişmək, azad sahibkarlığın yüksək inkişaf tempini təmin etmək, yüz minlərlə yeni iş yerləri yaratmaq, əhalinin rifah halını nəzərə çarpacaq dərəcədə yüksəltmək fenomenal hadisələrdəndir.

Bütün regionlarımız kimi, illər ərzində cəbhə bölgələrimiz də əsl inkişaf və tərəqqi yoluna qovuşmuşdur. Belə regionlardan biri də Ağdamdır. Atəşkəsdən 25 il ötməsinə baxmayaraq, mənfur qonşular tərəfindən hər gün atəş səsləri eşidilir, cəhbə bölgəsində yaşayan sakinlərimizin rahatlığı pozulur, itkilər veririk. Artıq bu insanların səbr kasası dolub. Onlar savaşa girib, işğalçı qüvvələri doğma torpaqlarımızdan qovmağa hər an hazırdırlar. Lakin xalqımızın humanist xisləti, dövlətimizin sülhsevər siyasəti hələlik dinc danışıqlara üstünlük verir. Bu istiqamətdə cəhdlərimiz Ermənistanın destruktiv mövqeyi nəticəsində boşa çıxır. Doğma yurd yerlərimizi xarabalığa çevirən düşmən öz havadarlarının köməyinə arxalanaraq, heç bir nizamlama variantını qəbul etmir. Artıq 25 ildir ki, Ermənistanın işğal altında saxladığı torpaqlardan öz qoşunlarını qeyd-şərtsiz çıxarması barədə BMT-nin dörd qətnaməsi icra olunmayıb. Ermənistanın beynəlxalq təşkilatların heç bir qətnaməsinə məhəl qoymaması faktına dünya birliyi, Minsk Qrupunun həmsədr ölkələri hələ ki susur. Azərbaycan xalqının soyqırımına hesablanmış erməni təcavüzü nəticəsində işğal altında olan yaşayış məntəqələri, o cümlədən Ağdam şəhəri və onun kəndləri tamamilə dağıdılıb. Ağdamı bufer zona kimi saxlamağa çalışan işğalçı dövlət burada nə vardısa hamısının, necə deyərlər, altını üstünə çevirib.

Hələ ötən əsrin 90-cı illərində ermənilər tərəfindən Ağdam ətrafında bir neçə terror aktı da törədilib. Əvvəlcə Ağdam-Tbilisi sərnişin avtobusu partladılmış, bunun nəticəsində 20 nəfər dinc sakin həlak olmuşdur.

1991-ci ilin sentyabr ayında iki dəfə sərnişin avtobusuna basqın edilmiş, hər iki hadisədə 13 nəfər həlak olmuşdur. Üçüncü terror aktı 1992-ci il yanvarın 28-də Ağdamdan Şuşaya uçan vertolyotun vurulması ilə həyata keçirilmiş, vertolyotda olan heyət üzvləri ilə birlikdə 44 nəfər qətlə yetirilmişdir.

1993-cü ilin iyul ayının 23-də rayon ərazisinin 77,4 faizi Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunmuş, Ağdam şəhəri, bir qəsəbə, 82 kənd zəbt edilmiş, 153 min əhali qaçqın və köçkün vəziyyətinə düşmüşdür. Təxmini hesablamalara görə, rayona 17 milyard dollardan çox ziyan dəymişdir.

Ağdam rayonu 5 mindən çox şəhid vermiş, 3571 nəfər əlil olmuş, 16 nəfər ağdamlı "Milli qəhrəman" adına layiq görülmüşdür.

Hazırda rayonun Azərbaycanın nəzarətində olan ərazisində 18 yeni qəsəbə salınıb, bunların hər birində zəruri infrastruktur yaradılıb.

Ağdam rayonunda çoxlu sayda tarixi memarlıq abidəsi olub: Ağdam şəhərinin şimal-qərbində, Xındırıstan kəndində yerləşən Üzərlik təpə abidəsi, Xaçındərbənd kəndindəki Qutlu Musa oğlu türbəsi (1314-cü il), Salahlı-Kəndərli kəndindəki türbə və daş abidələri (XIV əsr), Paprakənd kəndindəki Xanoğlu türbəsi (XVII əsr), türbələr və məscid (XVIII əsr), Qarabağ xanı Pənahəli və onun nəsillərinin Ağdam şəhərindəki imarəti (XVIII əsr), Şaşlınlaq qalası və i.a.

Arxeoloji qazıntılar zamanı məlum olmuşdur ki, Ağdam qədim yaşayış məskənidir. İlk qədim insanlar bu ərazilərdə 6-8 min il əvvəl, yəni enolit dövründə (e.ə. V-IV minilliklərdə) yaşamış, əkinçilik və heyvandarlıq mədəniyyətinə bələd olmuşlar.

Qarabağ müharibəsində ən çox ziyan Ağdam şəhərinə dəymiş, vaxtilə respublikamızın ən abad, inkişaf etmiş, güclü iqtisadi potensiala malik olan rayonu vəhşicəsinə dağıdılmış, sənaye və sosial infrastruktur, məscidlər, tarixi abidələr yerlə-yeksan edilmişdir. Ağdam Qarabağın ürəyi idi. Onun itirilməsi regionun itirilməsinə gətirib çıxardı. Ağdamlılar mərdliklə, son damla qanlarınadək vuruşdular. Tamamilə köməksiz qalan ağdamlıların belə faciəli vəziyyətdən çıxmağı mümkünsüz idi. Ağdamın işğalı ərəfəsində rayonda 22 batalyon, o cümlədən 4200 nəfərdən çox şəxsi heyət, kifayət qədər silah-sursat və hərbi texnika cəmləşmişdi. Xəyanət nəticəsində həmin batalyonlar rayondan çıxarılmış, onlardan yalnız ikisi sona qədər erməni hərbi birləşməsinə müqavimət göstərmişlər. Hakimiyyət uğruna gedən didişmələr, çəkişmələr Ağdam kimi strateji mərkəzin əldən getməsi ilə sonuclandı.

1993-cü ilin iyun ayının 15-də xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev ölkəni uçurumdan xilas etmək üçün fövqəladə fədakarlıq və əsl vətənpərvərlik nümayiş etdirdi. Hətta 1994-cü ilin aprel ayında bəzi xəyanətkar qüvvələr 14 kəndi düşmənə təhvil verməklə öz çirkin niyyətlərini həyata keçirdilər. Həmin vaxt Heydər Əliyevə məlumat çatdırıldı, çox çətinliklə təxribatın qarşısı alındı. Bir yandan daxildə mövcud olan qarağuruhçu qüvvələr, digər tərəfdən erməni qəsbkarlar Ağdamın işğalını qaçılmaz etmişdir.

Hazırda Ağdam rayonunun ərazisində 90 min nəfərdən çox əhali yaşayır. Torpağa, əkinə-səpinə bağlı olan ağdamlılar bir qarış torpağı boş buraxmır, həm Vətən təəssübü çəkir, həm




də öz güzəranlarını günü-gündən yaxşılaşdırırlar.

Rayonun Quzanlı qəsəbəsində, 44 kəndində və yeni salınmış 16 qəsəbəsində həyat öz ahəngi ilə davam edir. Burada hər kəs yaxşı dərk edir ki, torpaqlarımız uzun müddət işğalda qala bilməz. Yaşadıqları əraziləri gülüstana çevirmək və böyük qayıdışa hazır olmaq – budur ağdamlıların yaşam fəlsəfəsi.

Buna təkan verən mühüm səbəb respublika prezidenti cənab İlham Əliyevin Qarabağ məsələsində tutduğu barışmaz mövqe və qələbəyə olan böyük inamdır. Ölkə başçısının hər bir çağırışını səbirsizliklə gözləyən ağdamlılar əzmini, gücünü toplayıb doğma yurd yerlərinin çiçəklənməsi naminə çalışırlar.

Yuxarıda da dediyim kimi, dövlət başçısının rəhbərliyi və göstərişi ilə rayonda yeni qəsəbələr salınır, zərər çəkmiş evlər bərpa edilir.Hazırda Xındırıstan kəndində cümə məscidi təmir olunur. Rayonun yaşayış məntəqələrində onlarla istehsal və emal müəssisələri yaradılmış, minlərlə yeni iş yerləri açılmışdır.

Ermənilər tərəfindən iriçaplı silah və artilleriya atəşinə məruz qalmış 121 evin bərpası davam etdirilir. Bərpa işləri cənab Prezident İlham Əliyevin "Ağdam rayonunun erməni silahlı birləşmələri və təmas xəttində yerləşən yaşayış məntəqələrində əhalinin məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" 2018-ci il 5 noyabr tarixli sərəncamına əsasən həyata keçirilir.

Dövlətin hərtərəfli diqqət və qayğısının nəticəsidir ki, vaxtı ilə başqa yerlərə çıxıb getmiş ağdamlılar indi geriyə, doğma yurd yerlərinə qayıdır, rayonun abadlıq-quruculuq işlərində fəal iştirak edirlər. Ağdam rayonunda həyata keçirilən sosial-iqtisadi və infrastruktur tədbirləri ardıcıl və sistemli xarakter daşıyır, hər il olduğu kimi cari ildə də rayonun sosial məsələlərinin həllinə diqqət artırılmışdır.

Əhalinin fasiləsiz elektrik enerjisi, təbii qaz və su ilə təminatını yaxşılaşdırmaq istiqamətində zəruri tədbirlər görülmüş, abadlıq-quruculuq işləri davam etdirilmişdir.

Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyinin olması, sahibkarlıq subyektlərinə güzəştli kreditlərin, subsidiyaların, yüksək reproduksiyalar toxum materiallarının, cins, mal-qaranın verilməsi aqrar bölmədə nəzərə çarpacaq irəliləyişlərə səbəb olmuş, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə böyük təkan vermişdir. Vaxt gələcək torpaqlarımız işğaldan azad ediləcək, Ağdam doğma Qarabağın mərkəzində möhtəşəm bir şəhərə çevriləcəkdir!

**Zülfü İlyasov,**
**bölgə müxbiri**

# İslam dünyasının müqəddəs bayramı



İnsanları halallığa, paklığa səsləyən Qurban bayramının çox maraqlı tarixi və şərtləri var. Əslində, qurban ayini İslamdan çox-çox əvvəllər, müxtəlif ölkələrdə müxtəlif cür icra olunurdu. Məsələn, qədim dövrlərdə qurban verilənlərin əksəriyyəti hərbi əsirlər olmuşdur. Çünki müharibədə ələ keçirilən əsirləri saxlamaq əlverişli deyildi, onlar izafi məhsul yaratmır, xüsusi gözətçi tələb edir və başqa əlavə qayğılar doğururdular. Buna görə də onların qurban verilməsi ən əlverişli və müqəddəs əməliyyat sayılırdı.

İslam dinində Qurban bayramı böyük bayram (eyd əl-kəbir) adlanır. Bayram günü məscidlərdə xüsusi bayram namazı qılınır, dəvə, mal-qara, davar qurban kəsilir, vəfat etmiş əziz adamların xatirəsini yad etmək əlaməti olaraq evlərdə və qəbiristanlıqlarda dua oxunur, ehsan verilir.

Qurban bayramı haqqında Qurani-Kərimdə deyilir ki, **"Allah Beytülhəram olan Kəbəni haram ayı (zilhiccəni), Kəbəyə gətirilən boyunları bağsız və bağlı (boyunlarına nişan taxılmış və taxılmamış) qurbanları insanların (dini və dünyəvi işlərinin) düzəlib sahmana düşməsi üçün bir yol müəyyən etdi".** Şəriətə görə, qurbanlıq heyvanın qüsuru olmamalı və onu kəsən bıçağa xüsusi qurban duası oxunmalıdır. Nəsil artımında dişi heyvanların müstəsna rolu olduğuna görə qurbanlıq heyvanın erkək olması daha üstün tutulur. Qurbanlıq qoçun yaşına gəlincə, bu, ən azı altı aylıq heyvan olmalıdır. Lakin dana, yaxud dəvənin bir yaşı tamam olsa, daha yaxşıdır. Bir qurbanlıq heyvan yeddi dindarın adından kəsilə bilər, lakin fərdi qurban daha savablı sayılır.

Qurban bayramı müsəlman ruhaniləri tərəfindən İbrahim peyğəmbərin (Ə) öz oğlu İsmayılı Allahın şərəfinə qurban kəsmək niyyətini bildirən hadisə ilə əlaqələndirilir. Allah öz sevimlisi İbrahim peyğəmbərin (Ə) sadiqliyini sınamaq üçün ondan yeganə oğlu İsmayılı qurban kəsməyi tələb edir və İbrahim peyğəmbər (Ə) gözünü qırpmadan oğlunu yerə yıxıb başını kəsərkən, Allahın göndərdiyi mələk Cəbrayıl (Ə) göydən enib onun əlini saxlayıb, Allahın İbrahimdən (Ə) razı qaldığını bildirib və oğlu İsmayılın əvəzinə Tanrının göndərdiyi qoyunu kəsməyi təklif edir. Buna görə də Qurban bayramında kəsilən qurbana "İsmayıl qurbanı" da deyirlər. Çox sevdiyi balasını Allah yolunda qurban verməyə hazır olması Peyğəmbərin (Ə) Allah qarşısında imanının, səmimiliyinin və mütiliyinin bariz sübutudur. Odur ki, din tarixində dərin iz salmış bu hadisə Allaha inamın, dərin etiqadın nümunəsidir. Bu hadisə onu göstərir ki, insanlar Allahı sonsuz imanla sevməli və öz sevgilərində bu cür səmimi olmalıdırlar. Çətin anlarda Allahı yada salıb, yaxşı zamanlarda Onu unutmaq möminə yaraşan hərəkət deyil!

Bu andan etibarən dindarlar hər il ev heyvanlarından birini Allahın şərəfinə kəsib, Ona öz itaətkarlıqlarını bildirirlər. Bu bayramın əsas mahiyyəti Allah yolunda kəsilmiş heyvanın ətini Allahın imkansız bəndələri ilə bölüşmək, onları sevindirmək və sevincinə şərik olmaqdır. Beləliklə, bu bayramın və ayinin də əsasında, orucluqda olduğu kimi, xeyirxahlıq, paklıq və Allaha inam və sevgi durur.

Qurbanlığın ən gözəl xüsusiyyətlərindən biri odur ki, burada din, məzhəb ayrı-seçkiliyinə yol verilmir. Bu bayramda istənilən dindən olan yetimin, kimsəsizin və yoxsulun haqqı var ki, varlının imkanından bəhrələnsin, adi günlərdə yeyə bilmədiyi qurbanlıq ətindən dadsın. Qurbanlıq o deməkdir ki, insanlar Allahın xoşuna gələcək bir əməli icra edirlər.

Qurbanlığın şərtlərindən biri də odur ki, qurban kəsmək yalnız buna imkanı olan varlı adamların boynunda haqdır. İmkanı olmayan adama isə qurban kəsmək vacib deyil. Qurban kəsmək üçün borc pula heyvan almaq İslamda təqdir olunmur, çünki bu bayramın əsas mahiyyəti zənginlərlə imkansızların birliyi, qardaşlığıdır. Bu bayramda hamı sevinməlidir: varlılar Allaha xoş gedən əməli icra etdikləri və kasıbları sevindirdiklərinə görə, kasıblar isə dünya nemətindən əldə etdiklərinə və başqalarından gördükləri mərhəmətə və qayğıya görə.

İslam dünyasının ən müqəddəs bayramlarından sayılan Qurban bayramı bütün müsəlman ölkələrində təmtəraqla qeyd olunur. Azərbaycan müstəqillik əldə etdikdən sonra Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanuna əsasən Qurban bayramı ölkəmizdə də dövlət səviyyəsində bayram edilir.






# Əhməd bəy Ağaoğlunun ömür yolundan səhifələr



**(əvvəli ötən saylarımızda)**

Məqsəd, əlbəttə, Qərb imperializminin sənaye sahəsindəki nailiyyətlərini tərifləmək olmayıb, bir yandan Şərqə «gün ağlamaq», o biri yandan da imperializmin müstəmləkə siyasətinin mahiyyətini açmaq idi. «İngiltərə-Əfqanıstan davası» bu mövzuda yazılmış geniş məqalə idi.

«İrşad» oxucuları üçün maarifləndirici mahiyyətdə olub, bir sıra canlı siyasi-iqtisadi məsələləri aydınlaşdıran məqalədə elm, sənaye və texnikanın tərəqqisinin həm Qərbi Avropa, həm də Asiya və Afrika ölkələrində xalq kütlələrinin həyatına işsizlik və aclıq kimi necə müdhiş hallar gətirdiyi izah olunur. Müəllifin hesabına görə, məsələn, Qərbin ən qabaqcıl ölkələrindən olan Fransa, Almaniya və İngiltərədə «millətin tam beşdən-altıdan bir hissəsi bir halətə düçar olmuşdur ki, işləmədiyi gün ac, evsiz və məskənsiz qalasıdır!». Vəziyyətdən çıxmaq məqsədilə görülən tədbirlər (yetim evləri, xəstəxanalar, xeyriyyəçilik, ianələr və s.) istənilən nəticəni vermədiyinə, işsizliklə bərabər narazılıq da gündən-günə artdığına görə «sosializm, kommunizm fikirləri getdikcə tərəqqi edir, beyinləri odlaşdırır». Sahibkarların fabrika-zavodları və başqa müəssisələri artırmaları nəticəsində eyni nisbətlə məhsulun da bollaşması yeni suallar ortaya çıxarır: «... məhsulları kimə satmaq, nərədə bunlar üçün müştərilər bulmaq, bunlara bazar açmaq?».

Beləliklə, kapitalist inkişafını pillə-pillə izləyən müəllif əmtəə və bazar probleminin ən nəhayət Avropanı müstəmləkəçiliyə aparıb çıxardığını möhkəm, ardıcıl məntiqlə izah edib aydınlaşdırır: «Millət özü sərf etdiyi miqdardan artıq qalanı labüd və naçar gərək Avropadan xaric bir millətə versin ki, mədəniyyət və tərəqqicə ülum və fünun və sənayecə geridə qalıb, fabrika və zavod işlərindən məhrum olduğu üçün Avropanın malütticarəsinə möhtacdır. Bu cür mədəniyyət və tərəqqicə, ülum, fünun və sənayecə geri qalıb da Avropaya möhtac olanlar biz bədbəxt Asiya və Afrika millətləriyiz.

Halət və övza böylə olduqda avropalıların Afrika və Asiyaya soxulmaları təbii və labüd bir əmrdir. Haman bu əmrdən naşi olaraq Avropanın fəhlə məsələsi bizim başlarımızda çatlayır».

Burada haşiyə şəklində deməmək olmaz ki, kapitalist iqtisadiyyatı qanunlarını əsasən düzgün izləyən müəllifin bəzi mühakimələri mübahisəlidir. Məsələn, o nəzərə almır ki, xarici kapitalın neft Bakısına soxulması burada sənayenin geri qalmasından daha artıq yerli, milli burjuaziyanın rəqabət üçün, demək olar, hər cəhətdən zəif olmasının nəticəsi idi.

Qərb imperializminin dünyanı yenidən bölüşdürmək və inhisarçılıq siyasətinin ifşasını verən hissə müəllifin iqtisadi-nəzəri görüşlərinin ən pozitiv, tutarlı müddəalarından ibarətdir: «Avropalılar Afrika və Asiya səltənətlərini zəbt etdikdə iki böyük məsələni həll edir. Əvvələn, öz malütticarəsi üçün alıcılar, bazarlar bulur və bu vəchlə iş, ruzi olur. Saniyən, zəbt etdikləri yerlərdə boş-bayaz torpaqları Vətəndə bicins olan öz həmcinslərinə verirlər, şu həmcinslərini bu yerlərə köçürüb, yavaş-yavaş yerli əhalinin məhv və nabud olmağına çalışırlar və şu vəchlə torpaq məsələsini də bir dərəcəyədək həll edirlər». Dərd bir də ondadır ki, avropalıların yer, torpaq məsələlərini «öz aralarında» həll edə bilməmələrinin zərərini «küreyi-ərzin bu iki bədbəxt qitəsi» - Afrika və Asiya çəkir. Qərb dövlətlərinin siyasəti, eyni zamanda, rəqabət üzərində qurulmuşdur. «Hər kəs istəyir fəqət özü üçün iş görsün və bacardıqca ən böyük parça aparsın».

Ağaoğlunun bu mühakimələrinin bütövlükdə səviyyəcə nəinki o zamankı, hətta müasir mütərəqqi siyasi-iqtisad nəzəriyyələrinin həmin məsələlərə münasibətinə yaxın olduğu iddia edilə bilər.

# Fərdi jurnalist yazıları müsabiqəsi elan edildi

Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu DOST (Dayanıqlı və Operativ Sosial Təminat) konsepsiyası əsasında innovativ yeniliklərin tətbiqi ilə dövlət sosial xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, bu xidmətlərin əhaliyə vahid standartlar əsasında "bir pəncərə"dən, tam şəffaf və operativ, vətəndaş rahatlığı və məmnunluğu prinsipi ilə təşkili sahəsində aparılan islahatlarla əlaqədar birgə fərdi jurnalist yazıları müsabiqəsi elan edir.

Müsabiqənin məqsədi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sosial islahatlar proqramının nailiyyətlərindən biri kimi dövlət sosial xidmətlərinin təşkilində DOST layihəsi əsasında innovativ yenilikləri, optimal və effektiv idarəçiliyi ehtiva edən yeni keyfiyyət mərhələsinə keçidin təmin olunması və sosial sahə üzrə genişmiqyaslı xidmətlərin əhaliyə vahid standartlar əsasında "bir pəncərə"dən, tam şəffaf, operativ, vətəndaş rahatlığı və məmnunluğu prinsipi ilə təşkilində layihənin mühüm üstünlükləri barədə geniş ictimai məlumatlandırmada peşəkar jurnalist əməyinin stimullaşdırılmasıdır.

Mövzusu "DOST mərkəzləri müasir Azərbaycanın siması kimi"olan müsabiqəyə təqdim olunan yazılara aid tələblərlə, yazıların qəbul qaydaları ilə kivdf.gov.az saytında tanış ola bilərsiniz.

**Müsabiqədə I yer üçün 1 nəfər (1000 manat); II yer üçün 2 nəfər (800 manat); III yer üçün 3 nəfər (500 manat) yazı qaliblərinin mükafatlandırılması nəzərdə tutulmuşdur.**

Bundan əlavə, 5 yazı müəllifinə (hər biri 200 manat) həvəsləndirici mükafatlar veriləcəkdir.

Qaliblər, həmçinin Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun xüsusi diplomu ilə təltif olunacaqlar.

# "Azərbaycan" İES: 500 və 330 kV-luq yarımstansiyalarda və dörd enerji blokunda işlərin çox hissəsi yekunlaşıb



Mingəçevir şəhərində yerləşən, Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan "Azərbaycan" İES-in yenidən qurulması prosesi sürətlə davam etdirilir.

"Azərenerji" ASC-nin İctimaiyyətlə əlaqələr və media mərkəzindən bildirilib ki, 8 enerji bloklu stansiyanın artıq beşinci, altıncı, yeddinci və səkkizinci bloklarında yenidənqurma işləri yekunlaşmaq üzrədir və təmirinə başlanacaq digər dörd enerji blokunda işlər ilin sonunadək başa çatacaq. Paralel olaraq 500 kilovoltluq dörd yuvadan ibarət yarımstansiyanın üç yuvasında işlər yekunlaşıb, dördüncü yuvada isə yekunlaşmaq üzrədir. Bütövlükdə bu yarımstansiyada işlərin 90 faizi görülüb.

Ötən ilin iyulunda qəza baş verən 330 kilovoltluq yarımstansiyada isə 63 cərəyan transformatorunun hamısı dəyişdirilib. Ümumilikdə bu yarımstansiyada işlərin yarıdan çoxu başa çatıb.

Bundan başqa, su kanalının beton qatının yenilənməsi işləri başa çatıb. Qarabağ kanalının üzərindən əhali üçün inşa edilən körpünün tikintisi yekunlaşır və bu günlərdə asfalt qatının vurulması prosesi həyata keçiriləcək.

Beləliklə, elektrik stansiyasının azot-oksigen, hava kompressor sahələrində, yağ və reagent təsərrüfatlarında, kimya sexində tikinti işləri başa çatıb, son sınaq işləri aparılır. Eyni zamanda, 6 kilometr məsafədə ərazinin hasarlanması və digər istiqamətlərdə də işlər sürətlə davam etdirilir. "Azərbaycan" İES-in yenidənqurulması prosesinin gələn ilin birinci yarısında yekunlaşdırılması planlaşdırılıb.

# "Wichitra" şirkəti ixrac üçün tərəfdaşlar axtarır



"Şri-Lankanın qida məhsulları istehsal edən "Wichitra" şirkəti Azərbaycandan olan idxalçı şirkətlərin axtarışındadır", - deyə Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondundan (AZPROMO) məlumat verilib.

"Wichitra" şirkəti quru meyvə, tərəvəz və dərman bitkilərinin istehsalı ilə məşğuldur. Hazırda şirkət öz məhsullarını birbaşa, eləcə də iri ixracatçılar vasitəsilə Avstraliya, Kanada, ABŞ, Almaniya, Fransa, İsveçrə, İsveç, Yeni Zelandiya, Sinqapur, Yaponiya, Koreya, BƏƏ və digər ölkələrə ixrac edir.

# 3 ölkə fındığın qiymətində razılığa gəldi

Türkiyə, Azərbaycan və Gürcüstanın kənd təsərrüfatı nazirlikləri fındıq sahəsində əməkdaşlıq barədə sənəd ("Fındık Alanında Stratejik İşbirliği Deklarasyonu") imzalayıblar. Əməkdaşlıqda məqsəd fındıq qiymətlərini yüksək saxlamaqdır.

Hər 3 ölkə fındığı ucuzlaşdırmayacaq, dünya bazarlarına razılaşdıracaqları yüksək qiymətlər ilə təklif edəcəklər.

Azərbaycanın Kənd Təsərrüfatı naziri İnam Kərimov Türkiyənin Ordu şəhərində səfərdə olub.

Səfər çərçivəsində Türkiyənin Kənd Təsərrüfatı və Meşə naziri Bekir Pakdemirli, Azərbaycanın Kənd Təsərrüfatı naziri İnam Kərimov və Gürcüstanın



Ətraf Mühit və Kənd Təsərrüfatı naziri arasında görüş olub.

İnam Kərimov imzalanmış sənədin çox önəmli olduğunu qeyd edərək, bu sayədə fındıq istehsalçılarının gələcəkdə daha çox gəlir əldə edəcəklərini bildirib:

"Dünyada fındığın 75%-ni istehsal edən bu 3 ölkə gəlirlərini daha da artıra bilər. Bunun üçün əməkdaşlıq çox önəmlidir. İnanıram ki, əməkdaşlığımız nəticəsində istehsalçıların əldə edəcəyi, ölkələrə daxil olan valyuta daha yüksək məbləğlərdə olacaqdır".

Türkiyənin Kənd Təsərrüfatı və Meşə naziri Bekir Pakdemirli, "İstehsalçıları qorumalıyıq, eyni zamanda, istehlakçılar bahalı fındıq yeməməlidir. Amma fındıq ixrac məhsuludur. Fındığın 90%-i ixrac olunur. Bu səbəbdən qiymət nə qədər yüksək olarsa, o qədər yaxşı olacağını düşünürük",- deyib.

Əməkdaşlıq ilə fındığın məhsuldarlğının və keyfiyyətinin artırılması da hədəflənir. Eyni zamanda, xəstəliklər ilə birgə mübarizə aparılacaq.

3 ölkənin nazirinin iştirakı ilə Orduda fındıq yığımına başlanılıb.

# 400-ə yaxın layihəyə investisiya təşviqi sənədi verilib

Ölkədə idxalı əvəz edən və ixracyönümlü sənayenin inkişafı, bu sahəyə investisiyaların cəlb edilməsinin stimullaşdırılması məqsədilə bu günədək 400-ə yaxın layihəyə investisiya təşviqi sənədi verilib.

Bu barədə İqtisadiyyat naziri Şahin Mustafayev AZƏRTAC-a müsahibəsində deyib.

Nazir bu layihələr çərçivəsində ölkə iqtisadiyyatına 3,4 milyard manat investisiya yatırıldığını və 16 mindən çox iş yeri yaradıldığını vurğulayıb.



# Ağsuda 116 min 420 ton taxıl istehsal olunub



Ağsu rayonunda taxıl biçini kampaniyasına yekun vurulub.

Taxılçılıq kənd təsərrüfatının aparıcı sahəsidir və cari mövsümdə 36 min 355,5 hektarda məhsul yetişdirilmişdi. Zəmilərdən 116 min 420 ton taxıl götürülüb. Bu göstərici ötən ildəkindən 16 min 518 ton çoxdur. Hər hektardan məhsuldarlıq 2,1 sentner artaraq 32 sentnerə çatıb.

Rayonun bir sıra ərazilərində, o cümlədən Gəgəli, Bico, Kəndoba, Çaparlı, Qaraqoyunlu ərazi dairələrində sahibkarlar daha yüksək məhsuldarlığa nail olublar.

## DÜNYA

# Rumıniya "Cənub Qaz Dəhlizi"nin genişlənməsində iştirak edəcək



Ölkənin Energetika Nazirliyi, "Transqaz" şirkəti və "Cənub Qaz Dəhlizi" məşvərət şurası arasında "Cənub Qaz Dəhlizi"nin Balkan və Mərkəzi Avropada genişlənməsi mərhələlərində Rumıniya-Bolqarıstan interkonnektoru və Bolqarıstan-Rumıniya-Macarıstan-Avstriya (BRUA) boru kəməri infrastrukturunun istifadəsi üzrə əməkdaşlığın potensialı barədə Rumıniya hökuməti tərəfindən Anlaşma Memorandumu imzalanıb. Rumıniya-Bolqarıstan interkonnektoru, eləcə də BRUA layihəsi Xəzər və Aralıq dənizlərindən, Yaxın Şərq və ya Mərkəzi Asiyadan təbii qaz mənbələrinin Mərkəzi və Qərbi Avropa bazarlarına inteqrasiyasını təmin edəcək.

Tikintinin başa çatmasından sonra BRUA Macarıstana ildə 4,4 milyard kubmetr, Bolqarıstana 1,5 milyard kubmetr qaz nəql etməyə imkan verəcək.

# Brexit NATO-nun Avropada rolunu möhkəmlədəcək



Böyük Britaniyanın Avropa İttifaqını (Aİ) tərk etməsi (Brexit) NATO-nun Avropadakı rolunu möhkəmlədəcək, çünki Brüsseldən ayrılan Birləşmiş Krallıq alyansın tərkibində qalacaq. AZƏRTAC NATO-nun mətbuat xidmətinin məlumatına istinadla xəbər verir ki, bu fikri Yeni Zelandiyada səfərdə olan təşkilatın baş katibi Yens Stoltenberq səsləndirib.

NATO-nun rəhbəri tələbələr qarşısında çıxışında deyib: "Brexit sayəsində NATO Avropa ölkələrinin və Şimali Amerikanın birliyini qoruyub saxlamaq üçün daha mühüm platformaya çevriləcək. Çünki Böyük Britaniya və digər Avropa ölkələri əvvəlki kimi alyansın tərkibində olacaqlar".

Baş katib xatırladıb ki, Brexit Londonun NATO-da üzvlüyünə əngəl olmayacaq.

Qeyd edək ki, Böyük Britaniya bu il martın 29-da Aİ-ni tərk etməli idi. Lakin Britaniya parlamenti sabiq Baş Nazir Tereza Meyin bu prosesə bağlı irəli sürdüyü sazişin layihəsini iki dəfə rədd edib və bundan sonra Brexitin tarixi oktyabrın 31-nə təyin edilib. Hazırkı Baş Nazir Boris Conson isə həmin tarixdə Birləşmiş Krallığın Aİ-ni saziş-siz tərk edə biləcəyini bildirib.

# Qızılın qiyməti 6 ilin ən yüksək səviyyəsindədir




"Comex"də əməliyyat olunan qızıl fyuçersləri 1500 dolları aşaraq 2013-cü ildən bəri ən yüksək səviyyəni görüb.

ABŞ-Çin ticarət müharibəsində gərginliyin yüksəlməsinə dair narahatlıqlar, qlobal iqtisadi artımın yavaşlaması və bütün dünyada mərkəzi bankların pul siyasətlərini yumşaltmaları (faizi aşağı salmaları) qızılın qiymətini dəstəkləyir.

"Comex"də qızıl fyuçersləri 1,2% artımla 1502.30 dolları görüb. Bu il qızılın unsiyası 17% bahalaşıb. Qızılın qiyməti "exchange traded" fondlara (ETF) girişlərdən də dəstək alır.

Bahalaşan başqa bir qiymətli metal gümüşdür.

ABŞ Prezidenti Donald Tramp, sentyabrdan etibarən 300 milyard dollarlıq Çin məhsullarına əlavə 10% vergi tətbiq edəcəklərini açıqladı. Bunun ardınca Çin yuanın dəyər itirməsinə icazə verdi. Sonra isə ABŞ Çini "məzənnə manipulyatoru" elan etdi.

"UBS Group AG"nin risk ssenarisinə görə, ticarət gərginliyinin daha çox artması vəziyyətində qiymət 1600 dollara qədər qalxa bilər.

Qızılın bahalaşması ilə əlaqədar olaraq mədən şirkətlərinin səhmləri də bahalaşır.

Gümüş isə 2,2% bahalaşaraq 16.8082 dolları görüb. Bu qiymət bir ildən uzun müddətin ən yüksək səviyyəsidir.

# Almaniyanın sənaye istehsalında son 10 ilin ən kəskin azalması baş verib



Almaniyada sənaye istehsalı iyun ayında 2009-cu ilin sonundan bu yana görülən ən kəskin illik azalmanı qeyd edib. Ölkədə sənaye istehsalı iyunda ötən ilin eyni dövrü ilə müqayisədə 5,2% azalıb. İqtisadçılar azalmanın 3,7% olacağını nəzərdə tuturdular. Azalma Avropanın ən böyük iqtisadiyyatında ticarətdən qaynaqlanan geriləmənin ciddiliyini göstərir.

Sənayenin azalması məşğulluq bazarına mənfi təsir etməyə başlayıb. Vəziyyət gedərək pisləşir. Almaniyada sənaye istehsalı may ayı ilə müqayisədə iyunda 1,5% azalıb. Proqnoz 0,5% idi.







Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500